Xalq qəzeti.- 2022.- 2 oktyabr.- S. 5

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 374 Bakı şəhəri, 30 sentyabr 2022-ci il**

**Azərbaycan Milli Elmlər Akademiyasının strukturunun və işçilərinin say həddinin təsdiq edilməsi haqqında**

"Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 iyul tarixli 1769 nömrəli Fərmanının 6.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərbaycan Milli Elmlər Akademiyasının strukturu" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Milli Elmlər Akademiyasının büdcədən maliyyələşdirilən işçilərinin say həddi 3510 ştat vahidi olaraq təsdiq edilsin.

**3.** "Azərbaycan Milli Elmlər Akademiyasının strukturunun və işçilərinin say həddinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 17 noyabr tarixli 363 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 11, maddə 1426; 2016, № 7, maddələr 1356, 1359; 2017, № 1, maddə 127; 2020, № 10, maddə 1263; 2021, № 9, maddə 1076) ləğv edilsin.

***Əli ƏSƏDOV***

***Azərbaycan Respublikasının Baş naziri***